# Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 yanvar tarixli 488 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə verməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 yanvar tarixli 488 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 78 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə verməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 5-ci hissə üzrə:

1.1. 5.2-ci bəndin dördüncü cümləsi çıxarılsın;

1.2. 5.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"5.4. Fond razılıq barədə qərarını elektron sistemdə yerləşdirdiyi gündən 7 iş günü müddətində müraciət edən şəxs yaşayış sahəsini seçir və yaşayış sahəsi onun tərəfindən seçildiyi gündən 7 iş günü müddətində kirayə müqaviləsinin rəsmiləşdirilməsi həyata keçirilir.";

1.3. 5.6-cı bənddə "müddətə" sözü "müddətlərə" sözü ilə əvəz edilsin;

1.4. 5.7-ci bəndə "5.2-ci" sözlərindən sonra ", 5.4-cü" sözləri əlavə edilsin.

2. 9-cu hissə üzrə:

2.1. 9.3-cü bəndin birinci abzasında "verir" sözü "verilməsi ilə bağlı tədbirlərə başlayır" sözləri ilə əvəz edilsin;

2.2. 9.5-ci bəndə "verilməsi" sözündən sonra "ilə bağlı tədbirlərə başlanılması" sözləri əlavə edilsin;

2.3. aşağıdakı məzmunda 9.6-cı bənd əlavə edilsin:

"9.6. Bu Qaydanın 9.3.3-cü yarımbəndində müəyyən edilən əsasla Fond kirayə müqaviləsinə vaxtından əvvəl xitam verilməsi ilə bağlı tədbirlərə başladıqda kirayəçi kirayə müqaviləsi üzrə yaranmış borc məbləğini kirayə münasibətlərinə xitam verilənədək (məhkəməyə müraciət edildiyi halda - məhkəmə qətnaməsi çıxarılanadək) tam ödəyərsə, Fond kirayəçi ilə kirayə münasibətlərini (məhkəməyə müraciət edildiyi halda - barışıq sazişi bağlamaqla) davam etdirir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2024-cü il*

---

Azərbaycan.- 2024.- 7 iyun, № 119.- S.9.